*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 4, 2024*
*Səh. 99-103*
https://doi.org/10.62837/2024.4.99

**NİGAR ELŞƏN QIZI MURADOVA**
**Bakı Qızlar Universiteti**
**E-mail: nigarmurad97@gmail.com**

# İBTİDAİ SİNİF ŞAGİRDLƏRİN NİTQİNDƏ QRAMMATİK VƏ ÜSLUBİ SƏHVLƏRİN ARADAN QALDIRILMASI

**Açar sözlər:** *nitq, dil, ədəbi dil, norma*
**Ключевые слова:** *речь, язык, литературный язык, норма*
**Key words:** *language, literary language, norm*

Məktəbin qarşısında duran ən mühüm pedaqoji məsələlərdən biri şagirdlərin nitqinin inkişaf etdirilməsidir. Birinci sinifdən başlayaraq on birincici sinfədək məktəbin şagird nitqinin inkişafında olan təsirini heç nə ilə əvəz etmək olmaz.

Nitqin həm şifahi , həm də yazılı formada informasiya ötürücü vasitə olduğunu nəzərə alsaq insanın bütün həyat sferalarına olan təsirini anlamış olarıq.

Professor Yəhya Kərimov ibtidai siniflərdə ana dili fənninin tədris nəticəsinin şagirdlərin öz fikrini müstəqil və rabitəli formada çatdırma bacarıqları ilə ölçüldüyünü bildirmişdir. [2]

Morfologiyada sözün formaları, sözlərin quruluşu, dəyişmə qaydaları, hansı nitq hissəsinə aid olduğu, nitq hissələrinin özünəməxsus qanunauyğunluqları öyrənilir. Sintaksis isə söz birləşmələrini və cümlələri öyrənir.

İbtidai sinif şagirdlərinin nitqində qrammatik normaların pozulması halları tez-tez baş verir. Səhvlər mütləq şagirdə izah olunmalı və düzəldilməlidir. Görməzdən gəlinən nitq səhvləri şagirdlərlə onların həyatının sonrakı mərhələlərinə ötürüləcəkdir. Aydındır ki, səhvləri aradan qaldırmaq üçün ilk növbədə bu səhvləri aşkarlamalıyıq. İbtidai sinif şagirlərinin nitqində qrammatik normaların pozulması hallarına nəzər salaq. Şagirdlər şəkilçilərin istifadəsində tez-tez səhvlərə yol verirlər. İbtidai sinif şagirlərinin çətinlik çəkdiyi məqamlardan biri də "cəm" şəkilçisini düzgün işlətməklə bağlıdır. Bildiyimiz kimi miqdar saylarından sonra gələn isimlər təkdə işlənir. Yanlış istifadə zamanı şagirdlər "Beş adamlar gəldilər", "İki uşaqlar dalaşdılar", "Səkkiz qələmlərim itib" kimi ifadələr işlədirlər. Toplu isimlər cəm şəkilçisi qəbul etsə də, istisna hesab edilən camaat, əhali kimi sözləri şagird nitqində cəm şəkilçisi ilə eşidə bilirik. "Bir ora bax, camaatlar yığışıb", "Bizim şəhərimizin əhaliləri çox mehribandır". Bəzən cəmlənə bilən toplu isimlərin də yerinə görə düzgün cəmlənmədiyini görürük. "Azərbaycan orduları çox qüdrətlidir". Eləcə də "bir sıra", "bir çox", "əksər" kimi say birdirən sözlərdən sonra gələn isimlər cəmdə olmalıdır. Təkdə işləndikdə qrammatik norma pozulur. Məsəslən, "bir çox işçi". Doğru versiya "bir çox işçilər" olacaqdır.

Şəkilçilərin artırılması ilə bağlı önəmli olan qaydalar vardır. Adlara (isim, sifət, saylara) əvvəl kəmiyyət, sonra mənsubiyyət, daha sonra hal, ondan sonra isə xəbər kateqoriyasının şəkilçiləri artırılır: müəllimlərimizindir.

Felin kökünə əvvəl təsirlik, sonra növ, daha sonra şəkil, ondan sonra isə şəxs - xəbər əlaməti artırılır: "sevin-dir-il-məli-dir".

Mübtəda ilə xəbərin uzlaşmasının pozulması hallarına da tez-tez rast gəlinir. "Əsas məqsəd şagirdləri cəzalandırmaq deyil, onlara səhvlərindən nəticə çıxarmağı öyrədilir" cümləsində uzlaşma əlaqəsi pozulmuşdur. "Öyrədilir" sözü əvəzinə "öyrətməkdir" işlənilməlidir. İbtidai sinif şagirdlərinin nitqində rast gəldiyimiz hallardan biri də mübtəda ilə xəbərin şəxsə və kəmiyyətə görə uzlaşmamasıdır. "Müəllim, siz ev tapşırığını niyə yoxlamadın?"

Cümlənin xəbəri felin arzu şəkli əvəzinə, qeyri-qəti gələcək zamanda və ya şərt şəklində işlənərsə, morfoloji norma pozulur. Məsələn, "kaş onu tez-tez görərdim", "kaş getsə idim" və s. Əslində "kaş görə idim", "kaş gedə idim" olaraq ifadə olunmalıdır.

İbtidai sinif şagirdlərinin nitqində cümlə üzvlərinin ardıcıllığının pozulması hallarına da rast gəlinir. Belə ki, azərbaycan dilinin cümlə quruluşuna əsasən mübtəda cümlənin əvvəlində gəlməlidir. Daha sonra tamamlıq, sonra isə xəbər gəlir. Təyin isə təyin olunan cümlə üzvünün əvvəlində verilir. Zərflik isə əsasən, xəbərdən öncə işlənir.

Şagirdlərin öz yaş və bilik səviyyələrinə görə xarici aləmi düzgün qavramaları gözlənilir. Bütün bunları qrammatik və üslubi xüsusiyyətlərə əməl edərək ifadə etmək onlardan müəyyən bilik və bacarıqlar tələb edir. Bunun üçün şagirdlər cümlə və lüğət üzərində iş prosesi zamanı qazandıqları vərdişlərə müraciət etməli olduqları üçün ibtidai sinif ana dili dərslərində qeyd olunan mövzulara xüsusi öncəlik və zaman verilməlidir. İbtidai siniflərdə oxu dərslərinin təşkili rabitəli nitqin, xüsusən də şifahi rabitəli nitqin inkişafına xidmət etməlidir. Cümlələri ümumi məzmun və idea ətrafında birləşdirib rabitəli mətn qurmağı tələb edən, nitq və təfəkkürün inkişafında əhəmiyyətli rol oynayan ifadə və inşalar da bu baxımdan öyrədici xarakter daşıyır. Uşaqlar oxunmuş mətni yenidən ifadə etməkdənsə gördüklərindən bəhs etməyə daha çox meyilli olurlar. İnşa yazarkən şagirdlər yeni hekayə yaratmış olurlar. İnşanı yaradıcı xüsusiyyəti onu uşaqlar üçün daha maraqlı edir. İfadənin məğzi isə şagirdin eşitdiyi bir mətni öz sözləri ilə yazmaqdır. İfdədə fikirlər təhrif edilməməlidir. Dəqiqlik və ardıcıllıq qorunmalıdır. İfadə yazmağın digər üstünlüklərindən biri də şagirdlərin yalnız verilən fikirləri deyil, müəllifin hazır cümlələrini və ifadə tərzini də olduğu kimi yadda saxlamağa cəhd göstərməsidir. Bu zaman şagirdlər heç zaman eşitmədikləri yeni sözlər eşidir, daha öncə istifadə etmədikləri söz birləşmələri, ifadələr, cümlə konstruksiyaları ilə qarşılaşır və onları yadda saxlamalı olurlar. Təbii ki, bildikləri sözlər və tanış konstruksiyalarla hekayə yaratmaq baxımında inşa yazmaq onlara daha asan gələ bilər.

İbtida sinif şagirdlərini inşa yazılarında tez-tez üslub səhvlərinə rast gəlmək mümkündür. Üslub səhvləri deyərkən nəzərdə tutulan cümlənin qurulması ilə bağlı

buraxılan səhvlərdir. Cümlədə uzlaşma və idarə əlaqəsinin doğru verilməməsi, bağlayıcıların və əvəzliyin yerində işlədilməməsi, söz sırasının pozulması, felin zamanlarının yanlış istifadəsi, eyni səslənməyə malik sözlərin təkrar təkrar istifadəsi, cümlə üzlərindən birinin buraxılması, artıq sözlər, abzasların gözlənilməməsi və s.

K.D.Uşinski uşaqların düşünmə şəklini obrazlı olaraq belə ifadə etmişdi: "Uşaq formalarla, boyalarla, səslərlə, ümumiyyətlə duyğularla fikirləşir. Onu başqa cür düşünməyə məcbur edən şəxs onun təbiətini əbəs yerə zorlamış olar".[3]

Məktəbəqədər yaşlı uşağın nitqi adətən məişət üslubunda olur. İbtidai siniflərdə şagirdlər dilin ədəbi normalarına yiyələnir, elmi, rəsmi, publisistik üslublarla tanış olaraq onları mənimsəyirlər. İbtidai sinif şagirdinin nitqini məişət üslubundan tamamən uzaqlaşdırmaq mümkün olmaya bilir. Məqsəd şagirdi məişət üslubunu itirmək deyil, situativ olaraq harada, nə zaman, hansı üslubdan istifadə etmək lazım olduğu haqqında bilik və bacarıqlara yiyələndirməkdir

**Məqalənin aktuallığı. .** Müasir dönəmdə ibtidai sinif şagirdlərin nitqindəki problemlər kəskin surətdə nəzər çarpır. Fikrini doğru şəkildə ifadə edə bilməyən, danışarkən bir çox qrammatik və üslubi xətalara yol verən insanları gündəlik həyatda, iş müsahibələrində, eləcə də insanların ən çox vaxt keçirdiyi sosial media platformalarında görə bilirik. Bütün bu problemlərin təməli erkən uşaqlıq və kiçik məktəbli illərində qoyulur desək heç də yanlış fikir səsləndirmiş olmarıq. Nitq inkişafı dövründə uşaq beyni ətrafdakı informasiyaları və onların ifadə tərzini süngər kimi özünə çəkir. Müasir metodlarda kiçik məktəblilərdə rabitəli nitqin inkişafı problemi getdikcə daha çox əhəmiyyət kəsb edir. Şagirdlərə yaşına uyğun danışıq, o cümlədən üslubi rəngli nitq öyrətmək problemləri xüsusilə aktualdır. Çünki kiçik məktəblilərin düşüncə və hisslərini adekvat formada ifadə etmə bacarığı onların psixikasına da müsbət təsir edir, özlərini sosial olaraq daha faydalı, özgüvənli hiss etmələrinə səbəb olur.

**Məqalənin elmi yeniliyi.** Məqalədə ibtidai sinif şagirlərinin rabitəli nitqinin inkişafındakı çətinlikdən və onların aradan qaldırılması yollarından bəhs olunur. Bundan başqa, oxu dərslərinin, inşa və ifadə yazılarının rabitəli nitqin inkişafında əhəmiyyətinə dair tövsiyələr verilir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən orta ixtisas və orta ümumtəhsil məktəblərinin müəllimləri, tələbə və magistrantlar istifadə edə bilərlər.

## Ədəbiyyat

1. Cəfərova N.B İbtidai siniflərdə Azərbaycan dilinin tədrisi metodikası. I hissə. (Dərslik). Bakı,2016.
2. Kərimov Y.Ş. İbtidai siniflərdə ana dilinin tədrisi metodikası.Bakı,1997.
3. Rəhimov A. Ana dilinin tədrisi metodikası. Bakı,1997.

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 4, 2024*
*Səh. 99-103*

**N.E.Muradova**

**Xülasə**

İbtidai sinif şagirdlərinin nitqində qrammatik normaların pozulması halları tez-tez baş verir. Səhvlər mütləq şagirdə izah olunmalı və düzəldilməlidir. Şagirdlər şəkilçilərin istifadəsində tez-tez səhvlərə yol verirlər. Şəkilçilərin istifadəsində “cəm” şəkilçisinin yanlış istifadəsi, toplu isimlərin cəmdə işlədilməməsi, cəmlənməyən toplu isimlərin cəmdə verilməsi, şəkilçilərin artırılması ilə bağlı yanlışlar, mübtəda ilə xəbərin uzlaşmasının pozulması, cümlə üzvlərinin ardıcıllığının pozulması kimi hallara ibtidai siniflərdə tez-tez rast gəlinir. Bütün bunları qrammatik və üslubi xüsusiyyətlərə əməl edərək ifadə etmək onlardan müəyyən bilik və bacarıqlar tələb edir. Məktəbəqədər yaşlı uşağın nitqi adətən məişət üslubunda olur. İbtidai siniflərdə şagirdlər dilin ədəbi normalarına yiyələnir, elmi, rəsmi, publisistik üslublarla tanış olaraq onları mənimsəyirlər. Məqsəd şagirdi məişət üslubunu itirmək deyil, situativ olaraq harada, nə zaman, hansı üslubdan istifadə etmək lazım olduğu haqqında bilik və bacarıqlara yiyələndirməkdir. Bütün bunlar ibtidai sinif müəllimlərinin üzərinə düşən vəzifələrdir.

**Н.Э.Мурадова**

**РЕЗЮМЕ**

**УСТРАНЕНИЕ ГРАММАТИЧЕСКИХ И СТИЛИСТИЧЕСКИХ ОЩИБОК В РЕЧИ УЧАЩИХСЯ МЛАДШИХ КЛАССОВ**

В речи младших школьников часто нарушаются грамматические нормы. Ошибки следует разъяснить учащемуся и исправить. Учащиеся часто допускают ошибки при использовании суффиксов. Такие случаи, как неправильное употребление суффикса «множественного числа» в использовании иллюстраторов, неупотребление существительных во множественном числе во множественном числе, множественное число несобирательных существительных, ошибки, связанные с добавлением суффиксов, нарушение согласия между подлежащим и подлежащим. Нарушение последовательности сообщений и членов предложений распространено в низших классах. Выражение всех перечисленных ниже грамматических и стилистических особенностей требует от них определенных знаний и навыков. Речь дошкольника обычно строится в повседневном стиле. В начальной школе учащиеся изучают литературные нормы языка, знакомятся с научными и официально-публицистическими стилями и осваивают их. Цель состоит не в том, чтобы ученик утратил свой повседневный стиль, а в том, чтобы приобрести знания и навыки того, где, когда и какой стиль использовать ситуативно. Все это обязанности учителей начальных классов.

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 4, 2024*
*Səh. 99-103*

**Nigar E.Muradov**

**RESUME**

**ELIMINATION OF GRAMMATICAL AND STYLISTIC ERRORS IN THE SPEECH OF ELEMENTARY SCHOOL STUDENTS**

İn the speech of elementary school students, violations of grammatical norms often occur. Errors must be explained to the student and corrected. Students often make mistakes in the use of suffixes. Cases such as incorrect use of the "plural" suffix in the use of illustrators, failure to use collective nouns in the plural, giving non-collective collective nouns in the plural, mistakes related to the addition of suffixes, violation of the agreement between the subject and the message, and the violation of the sequence of sentence members are often found in elementary grades. Expressing all these following grammatical and stylistic features requires certain knowledge and skills from them. The speech of a preschooler is usually in a domestic style. In primary classes, students learn the literary norms of the language, get acquainted with scientific, official, journalistic styles and master them. The goal is not to lose the student's household style, but to acquire knowledge and skills about where, when and what style should be used situationally. All these are the duties of primary school teachers.

**Rəyçilər: filol.ü.f.d., dos. T.Ç.Şükürlü**